# Yusif Səmədoğlu adına nəsr müsabiqəsinin qalibləri açıqlandı



Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda dekabrın 8-də keçirilən tədbirdə Yusif Səmədoğlu adına nəsr müsabiqəsinin qalibləri elan olundu. Ötən ilin dekabrında start verilən müsabiqə Dastanoğlu Fondunun sədri, yazıçı-publisist, iş adamı Rüstəm Dastanoğlunun təşəbbüsü ilə baş tutub və İkinci Qarabağ müharibəsi mövzusundakı əsərlərə həsr olunub. Müsabiqəyə roman, povest və hekayə janrları üzrə 45 əsər təqdim olunub. İki mərhələdə keçirilən müsabiqədə jüri üzvləri, öncə, hər janr üzrə 3 əsər seçərək ekspertlərə təqdim eləyib. İkinci mərhələdə ekspertlər bu müəlliflər arasından qalibləri müəyyən edib:

*Etibar Muradxanlı - "İlin beşinci fəsli" romanı;*

*Nazilə Gültac - "Şəhid atası" povesti;*

*Təvəkkül Boysunar - "Xoşbəxt göyərçinlər, xoşbəxt bayraqlar" hekayəsi*

Tədbirin aparıcısı - Azərbaycan Yazıçılar Birliyinin katibi, şair-tərcüməçi Səlim Babullaoğlu giriş sözü ilə çıxış edərək, sözügedən müsabiqə, onun perspektiv əhəmiyyəti, ümumən bu səciyyəli layihələrin ədəbi prosesə göstərdiyi müsbət təsir barədə fikirlərini bölüşdü və sonra sözü Rüstəm Dastanoğluna verdi. Əsas diqqəti Qarabağ zəfərimizin bədii ədəbiyyatda işıqlandırılması zərurəti, bunun bədii sözün zaman, dövlətçiliyimiz və millətimiz qarşısında borcu kimi dəyərləndirən R.Dastanoğlu Fondun bu istiqamətdəki fəaliyyətini bundan sonra da davam etdirəcəyini bildirdi. Xalq şairi Vahid Əziz, AYB sədrinin müavini, yazıçı-publisist Rəşad Məcid, yarışmanın Təşkilat Komitəsinin sədri, "Azərbaycan" jurnalının Baş redaktorunun müavini, ədəbi-tənqidçi Əsəd Cahangir, "Ədəbiyyat qəzeti"nin Baş redaktoru, jüri üzvü Azər Turan, yazıçı-tərcüməçi Yaşar Əliyév, professor Abbas Bağırov və digərləri çıxış edərək, Dastanoğlu Fondunun ədəbiyyatımızın inkişafı naminə atdığı bu addımı yüksək qiymətləndirdilər, digər iş adamlarımızı da bundan örnək götürməyə çağırdılar. Sonda çıxış edən AYB sədri, Xalq yazıçısı Anar yarışmanın unudulmaz yazıçımız Yusif Səmədoğlunun adına təsis edilməsindən dolayı, təsisçiyə təşəkkürünü bildirdi, bu işdə üzərinə böyük məsuliyyət düşən jüri üzvləri və ekspertlərin zəhmətini qeyd elədi, qaliblərə bundan sonrakı yaradıcılıq fəaliyyətlərində daha böyük uğurlar arzuladı.

Sonra qaliblərin ödülləndirilməsi başlandı: roman üzrə qalibə diplom və pul mükafatını Anar, povest və hekayə üzrə qaliblərə isə müvafiq olaraq Vahid Əziz və Rəşad Məcid təqdim elədi. AYB katibləri: Elçin Hüseynbəyli və İlqar Fəhmi, yazıçı, jurnalist və alimlərdən "Azərbaycan-Almaniya cəmiyyəti"nin sədri Çingiz Abdullayev, Fəxrəddin Salim, Fəxriyyə Lilpar, Əhməd Qəşəmoğlu, Nağdəli Zamanov və digərlərinin qatıldığı tədbir iştirakçıların xatirə şəkli çəkdirməsi ilə başa çatdı.

**Ədəbiyyat qəzeti. - 2023. - 16 dekabr, № 48-49. - S. 7.**